| | |
|---|---|
| AKTIN NÖVÜ | AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMLARI |
| QƏBUL EDİLDİYİ TARİX | 28.02.2007 |
| QEYDİYYAT NÖMRƏSİ | 2006 |
| ADI | Dövlət əmlakının özəlləşdirilməsinə nəzarət üzrə Dövlət Komissiyası haqqında |
| RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ | Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 28-02-2007, Nəşr nömrəsi: 02, Maddə nömrəsi: 179) |
| QÜVVƏYƏ MİNMƏ TARİXİ | 28.02.2007 |
| AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU | 090.000.000 |
| HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ | |
| HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX | 01.07.2011 |

## Dövlət əmlakının özəlləşdirilməsinə nəzarət üzrə Dövlət Komissiyası haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

"Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun 14-cü maddəsinə uyğun olaraq dövlət əmlakının özəlləşdirilməsi prosesinə dövlət nəzarətini gücləndirmək məqsədilə **qərara alıram:**

1. Dövlət əmlakının özəlləşdirilməsinə nəzarət üzrə aşağıdakı tərkibdə Dövlət Komissiyası yaradılsın:

**Komissiyanın sədri**

Azərbaycan Respublikasının Baş naziri

**Komissiyanın üzvləri:**

Azərbaycan Respublikasının iqtisadiyyat ~~və sənaye~~ naziri[1]
Azərbaycan Respublikasının maliyyə naziri
Azərbaycan Respublikasının ədliyyə naziri
Azərbaycan Respublikasının vergilər naziri
Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri
Azərbaycan Respublikasının energetika naziri[2]
~~Azərbaycan Respublikasının nəqliyyat naziri~~
Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri
Azərbaycan Respublikasının mədəniyyət ~~və turizm~~ naziri[3]
Azərbaycan Respublikasının səhiyyə naziri
Azərbaycan Respublikasının təhsil naziri
Azərbaycan Respublikasının *rəqəmsal inkişaf və nəqliyyat naziri*[4]
Azərbaycan Respublikasının gənclər və idman naziri
*Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri*[5]
~~Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin sədri~~[6]
Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində Dövlət əmlakının özəlləşdirilməsinə nəzarət üzrə Dövlət Komissiyası haqqında Əsasnamənin layihəsini hazırlayıb təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

3. Bu Sərəncam dərc edildiyi gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 28 fevral 2007-ci il
2006

-
-
-

### İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 5 mart 2009-cu il tarixli 71 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 6 mart 2009-cu il, 52, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 03, maddə 163**)
2. 2 iyul 2010-cu il tarixli **291** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 4 iyul 2010-cu il, 141, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 7, maddə 610**)
3. 10 fevral 2014-cü il tarixli **105** nömrəli Azərbaycan Respublikasının Fərmanı (**"Respublika" qəzeti, 12 fevral 2014-cü il, 30 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 2, maddə 112**)
4. 14 may 2014-cü il tarixli **164** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 16 may 2014-cü il, 101**)
5. 2 sentyabr 2014-cü il tarixli **247** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 09, maddə 1027**)
6. 16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384** )
7. 7 avqust 2017-ci il tarixli **1574** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 8 avqust 2017-ci il, 170 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 8, maddə 1521**)
8. 29 yanvar 2021-ci il tarixli **2461** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 30 yanvar 2021-ci il, 21 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 1, maddə 77**)
9. 31 may 2022-ci il tarixli **3298** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 2 iyun 2022-ci il, 114** )

### SƏRƏNCAMA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] 14 may 2014-cü il tarixli **164** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti 16 may 2014-cü il,   101)** ilə 1-ci hissəsində “**iqtisadi inkişaf**” sözləri “**iqtisadiyyat və sənaye**” sözləri ilə əvəz edilmişdir.

16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Respublika” qəzeti, 17 avqust 2016-cı il,   178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il,   8, maddə 1384 )** ilə 1-ci hissədən “**və sənaye**” sözləri çıxarılmışdır.

[2] 10 fevral 2014-cü il tarixli **105** nömrəli Azərbaycan Respublikasının Fərmanı ( **“Respublika” qəzeti, 12 fevral 2014-cü il,   30 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il,   2, maddə 112**) ilə 1-ci hissəsində “**sənaye və energetika naziri** ” sözləri “**energetika naziri**” sözləri ilə əvəz edilmişdir.

[3] 29 yanvar 2021-ci il tarixli **2461** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **(“Xalq” qəzeti, 30 yanvar 2021-ci il,   21, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il,   1, maddə 77)** ilə 1-ci hissəsindən “**və turizm**” və “**Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin sədri**” sözləri çıxarılmışdır və həmin hissədə “**Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin sədri**” sözləri “**Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri** ” sözləri ilə əvəz edilmişdir.

[4] 2 sentyabr 2014-cü il tarixli **247** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il,   09, maddə 1027**) ilə 1-ci hissədə “**rabitə və informasiya texnologiyaları naziri** ” sözləri “**rabitə və yüksək texnologiyalar naziri** ” sözləri ilə əvəz edilmişdir.

7 avqust 2017-ci il tarixli **1574** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 8 avqust 2017-ci il,   170 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il,   8, maddə 1521)** ilə 1-ci hissədən “**Azərbaycan Respublikasının nəqliyyat naziri** ” sözləri çıxarılmışdır və həmin hissəyə “**rabitə**” sözündən əvvəl “**nəqliyyat,**” sözü əlavə edilmişdir.

31 may 2022-ci il tarixli **3298** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **(“Xalq” qəzeti, 2 iyun 2022-ci il,   114)** ilə 1-ci hissədə “**nəqliyyat, rabitə və yüksək texnologiyalar**” sözləri “**rəqəmsal inkişaf və nəqliyyat**” sözləri ilə əvəz edilmişdir.

[5] 2 iyul 2010-cu il tarixli **291** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti 4 iyul 2010-cu il,   141, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il,   7, maddə 610)** ilə 1-ci bəndində "**Azərbaycan Respublikasının Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsinin sədri**" sözləri "**Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin sədri** " sözləri ilə əvəz edilmişdir.

[6] 5 mart 2009-cu il tarixli 71 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti   6 mart 2009-cu il,   52, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il,  03, maddə 163)** ilə 1-ci bəndinin “Komissiyanın üzvləri” bölməsinin on altıncı abzasından **“Prezidenti yanında”** sözləri çıxarılmışdır.